Azərbaycan Respublikasının Nazirlər Kabineti

**N 184** **QƏRAR** **Bakı şəhəri, 3 may 2016-cı il**

# "Viza blankının doldurulması Qaydası"nın, "Viza almaq üçün ərizə-anket"in nümunəsinin və "Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti"nin nümunəsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Viza blankının doldurulması Qaydası"nın, "Viza almaq üçün ərizə-anket"in nümunəsinin və "Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti"nin nümunəsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N 3, maddə 318) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına "təsdiq" sözündən əvvəl ", habelə "Azərbaycan Respublikasının ərazisində viza almaq üçün ərizə-anket"in nümunəsinin" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. "Azərbaycan Respublikasının ərazisində viza almaq üçün ərizə-anket"in nümunəsi təsdiq edilsin (4 nömrəli əlavə).".

2. Bu qərar dərc edildiyi gündən 30 gün sonra qüvvəyə minir.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*